BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№2 Humanitar elmlər seriyası 2014*

**UOT 94 "04/15"**

# IX-X ƏSRLƏRDƏ QIPCAQLARIN KARVAN YOLLARI

**S.C.İSMAYILZADƏ**
***Gəncə Dövlət Universiteti***
***saida79-79@mail.ru***

*Məqalədə qıpçaqların müəyyən bir dövr ərzində maddi və mənəvi həyatı haqqında məlumat verilir. Qıpçaqlar bir sıra dövlət və xalqlarla iqtisadi və siyasi sahədə əlaqələr qurmuş və bu yolla özlərindən sonra həmin xalqların tarixində müəyyən izlər qoymuşlar. Qıpçaqların tədricən oturaq həyat tərzinə keçməsi onlarda başqa bir sıra ticari sahələrin inkişafı ilə nəticələnmişdi. Qıpçaqlar ticarət əlaqə vasitələrindən biri kimi karvan yollarından da istifadə etmişlər.*

**Açar sözlər:** qipçaqlar, yayıldığı ərazilər, beynəlxalq əraqələr, ticarət karvan yolları

Orta Asiya və Cənubi Qazaxıstanda feodal istehsal üsulunun sonrakı inkişafı, şəhərlərin böyüməsi, IX-X əsrlərdə istehsalçı qüvvələrin inkişafı, həmçinin qıpçaq köçlərinin tamamilə əkin sahələrinə yaxınlaşması ilə bu ticari əlaqələr xüsusilə qüvvətləndi. Digər maldar xalqlarda olduğu kimi, qıpçaqlarda da əsas ticarət predmeti mal-qara və maldarlıq məhsulları idi. Bu məhsulları sənət məmulatları və əkinçi məhsullarına dəyişirdilər. Mübadilə ticarəti zamanı əsas ödəmə vahidi pul funksiyasını yerinə yetirən mal-qara idi (1, 165). Ticarət qarşılıqlı şəkildə baş verirdi.

Orta Asiya və digər yerlərdən olan tacirlər Qazaxıstan çöllərinin dərinliklərinə daxil olur və kimak və qıpçaqların köçlərində alış-veriş edirdilər. Qıpçaqlar da öz növbəsində tacirlərin onların yanına gələcəyini gözləmədən öz mal-qaralarını Sır-Dərya kənarı şəhər bazarlarına - Otrar, Sıqnak, Sauran, Cend və b. çıxarırdılar.

Kimaklara aparan yolun mövcudluğu haqqında ən erkən, lakin kifayət qədər fraqmentar məlumatları Təmim ibn Bəhr verir: biz ondan, Tarazdan kimakların yolu haqqında soruşduq və o dedi ki, Tarazdan gələn yol iki kəndə gedib çıxır və onlarla Taraz arasında məsafə 7 fərsəngdir. Bu yerdən kimaklar çarının şəhərinə yol sıravi üçün 80 gündür (2, 78).

Təmimdən bu məlumatları alan İbn əl-Fəqib əlavə məlumat verərək bizə kimaklara gedən yolun istiqamətini göstərir. O, bildirir ki, yol Tarazdan sola, yəni şimala doğru gedir.

Yenə də kimaklara gedən yol qeyri-müəyyən olaraq qalır. Çıxış nöqtəsi Taraz idi (müasir Canbul). Ondan 7 fərsəng solda iki kənd yerləşirdi, sonra isə yol qumluq, çöllər və vadilərə gedirdi.

Qardiziyə görə, kimaklara gedən yol Sır-Dəryanın orta axarından başlanırdı. Lakin sonrakı yol qeyri-müəyyənlik yaradır. Kimaklara gedən yolun ikinci məntəqəsi Yeni kənddir. Bu ad altında məskunlaşmış məntəqənin yerləşməsi haqqında təfsilatlı şəkildə İbn Haukal məlumat verir. Farabdan Yeni kəndə (Yengikent-türkcə) iki yolla getmək olardı, quru yolla və su yolu ilə - bu çayın axarı boyunca aşağı (3, 181).

Təəccüb doğuran məsələ ondan ibarətdir ki, kimaklara gedən yol üçün Qardizi belə dolayı marşrut seçmişdi. Halbuki şimalda Betrak-Dalu vasitəsilə digər birbaşa yollar da mövcud idi. Çox güman ki, Qardizi öz başlanğıcını Sır-Dəryanın orta və aşağı axarından götürən iki müstəqil yolu birləşdirmişdir. Buna Qardizinin Farabdan Yengikentə gedən yol haqqında heç bir məlumat verməməsi də işarə edir, sağ və ya sol sahili boyunca Sır-Dəryaya gedən yol uzanırdı, belə ki, məlum olduğu kimi, Farab şəhəri sağ sahilində, Yengikent isə sol sahilində yerləşirdi. IX əsrin sonunda daxili ziddiyyətlər və dini qarşıdurma nəticəsində Xəzər xaqanlığı öz əvvəlki qüdrətini itirdi. Xaqanlığın tərkibində olan dövlətlər tədricən ondan ayrılmağa başladılar. Çox güman ki, elə məhz bu dövrə Şərqi Avropa çöllərində yeni köçəri ittifaqın - peçeneqlərin formalaşmasını aid etmək lazımdır. Bu ittifaqa artıq dağılmış Kanqyuy siyasi birlikdən çıxanlar rəhbərlik edirdilər. Yeni birlik yeni ad aldı. Xalqların adlarının mənşəyi mürəkkəb məsələdir və öz qanunlarına tabedir. Bu məsələni çətin ki, bir nümunə ilə həll etmək mümkün olsun. «Peçeneq» (beçeneq) sözünün mənşəyi haqqında bir neçə fikir mövcuddur. Onlardan biri həqiqətə uyğun gəlir: bu söz türk adı olan Beçedən törəmişdir. Bu adla, çox güman ki, peçeneq tayfa ittifaqının ilk başçısını adlandırmışlar. Çöllərdə etnik adların belə mənşəyi ilə bağlı bir neçə misal mövcuddur. Başqa köçəri ittifaqlar kimi peçeneqlər də çoxtayfalı və müxtəlif dilli birlik idi, bu ittifaqa türkdilli ordalardan əlavə uqor qruplaşmaları da daxil ola bilərdi.

Öz qüdrətlərinin ilk onilliyində peçeneq ittifaqının ordaları cənubi Volqa çöllərində köçəri həyat sürürdülər. Orada həm siyasi birlik, həm də peçeneq etnosunun formalaşması prosesi başladı (3,181).

Türk peçeneqlərin coğrafi mövqeyi aşağıdakı şəkildə təsvir edilir: onların ölkəsinin şərqi quzlarla həmsərhəddir, onlardan cənubda burtaslar və baradaslar, onlardan qərbdə madyarlar və rus, onlardan şimalda Ruta çayı vardır. Onlardan qərbdə madyar-macar, rus torpaqları yerləşirdi. Buna görə də, peçeneqlər onlarla daha sonra toqquşdular. Əvvəlcə onlar o zaman Atelkuza adlanan Dnestr-Dnepr çöl ərazisində macarlara zərbə endirdilər. Bunun üçün onlar birinci növbədə bulqar çarı Simeonla hərbi saziş bağladılar. Simeon, bulqar çarı da macarlar kimi təhlükəli qonşunu məhv etmək arzusunda idi. Macarların əsas qüvvəsinin yürüşə çıxmasından faydalanan peçeneqlər onların ölkəsinə soxuldular və onların ailələrini məhv etdilər və köçləri qorumaq üçün

qoyulmuş döyüşçüləri qırdılar. Yürüşdən qayıdan macarlar gördülər ki, torpaqları düşmənlər tərəfindən tutulmuşdur. Artıq burada qala bilməyəcəklərini görən macarlar qərbə tərəf yollandılar. Peçeneqlərə gəlincə isə, onları bu qələbə Volqaya qədər Dnepr, Don ətrafı çöllərin yeganə sahibi etdi (1, 25).

Anonim fars müəllifi tərəfindən Xəzər adlanan peçeneqlərin digər qolu, şərqindən Xəzər dağlarının keçdiyi, cənubunda alanlar, qərbində Qurz dənizi, şimalında mirvatlar olan yerlərdə köçəri həyat sürürdülər. Görünür peçeneqlərin bu qolu haqqında olan məlumatlar birinci qola nisbətən daha qeyri-müəyyəndir. Yeganə aydın olan oriyentir, Qafqaz dağətəklərində yaşamış alanlardır. Adı çəkilən dəniz, çox güman ki, Azov dənizidir.

X əsrin ortalarına doğru peçeneqlər Volqadan Dunaya doğru uzanan çöllərdə böyük əraziləri tuturdular. Peçeneq ərazisinin siyasi coğrafiyası, orada ayrı-ayrı peçeneq ordalarının yerləşməsi haqqında Konstantin Baqryanorodnıy məlumat verir. Məsələ burasındadır ki, peçeneqlər o dövrdə Şərqi və Mərkəzi Avropa xalqlarının, ölkələrinin və habelə Bizansın tarixində kifayət qədər mühüm rol oynamışdır.

Xəzər xaqanlığının sərhədində ticari şəhər-istehkam olan Sarkeldə hələ IX əsrin sonunda köçəri qarnizon yaratmış peçeneq muzdluları yerləşmişdi. Bura daim quz ordalarından çıxanlar birləşirdi və Sarkeldə müdafiə və himayə istəyirdi. Bu peçeneq-quz qarnizonu Sarkelin Svyatoslav tərəfindən tutulmasından sonra da fəaliyyət göstərirdi. Bu şəkildə tədricən Sarkel yaxınlığında yeni siyasi birlik - peçeneq-quz ordası böyüməyə başladı. Ordanın üzvləri bir-birinə qan qohumu münasibətləri ilə deyil, inzibati hakimiyyətlə bağlı idilər və bu hakimiyyət əvvəlcə Sarkelin hakimi, sonra isə Svyatoslavın istehkamda qoyduğu dəstənin başçısı idi (3,87).

Təxminən bu dövrdə Aral boyu çöllərdə köçəri həyat sürən quz ordalarında Səlcuqların hərəkatı adlanan qiyam başladı. Quzlar Orta Asiyanın səhra və vahələrini keçərək Ön Asiyanı tutdular və Səlcuqlar türk imperiyasını yaratdılar. Şimal axınından olan quzlar Cənub-Rus çöllərini keçib cənubdan Bizans imperiyasına yollanan Səlcuqların əsas qüvvəsi ilə Bizansda birləşmək niyyətində idilər. Peçeneqlər dərhal bu qüvvətli hərəkata hücum etdilər - bir qrup ona birləşdi, başqaları məhv edildilər. Rus dəstələri ilə Torklar toqquşmamağa çalışırdılar: birincisi ona görə ki, rus torpaqları onların yolundan kənarda yerləşirdi, ikincisi, torklara yaxşı qonşuluq münasibətləri lazım idi, belə ki, onlar qüvvələrini imperiya ilə müharibə etmək üçün saxlayırdılar.

Qüdrətli hakim axtarışı hər iki xalq üçün son dərəcə zəruri idi, ona görə ki, şərqdən Şərqi Avropa çöllərinə artıq yenə əvvəlki iki xalqdan daha da qüvvətli olan köçəri axını gəlirdi. Bu yeni qüvvə ilk dəfə 1055-ci ilin yayında Rusun cənub-şərq sərhədinə yaxınlaşan poloveslər (qıpçaqlar) idi (1, 25).

Bir neçə minillik ərzində Şərqi Avropa çölləri köçərilərin beşiyi olmuşdur. Bir-birinin ardınca köçəri dalğaları Asiyadan Qara və Azov dənizləri sahillərinə və şimaldan cənuba zəngin otlaqları kəsən çoxlu sayda çaylara hücum edirdilər.

Darıxdırıcı quru məkan və Asiya yarımsəhralarından bu bolluğa düşən köçərilər bütün qüvvələri ilə bu ərazilərdə qalmağa və möhkəmlənməyə çalışırdılar. Bu torpaqlar onlara köçəri maldarlığın inkişafı üçün tam şərait yaradırdı. Əl-Cuzcaninin sözlərinə görə, Tuhi, Çingizxanın böyük oğlu qıpçaq torpağının havasını və suyunu gördü və belə başa düşdü ki, bütün dünyada bundan yaxşı torpaq, hava, daha şirin su, çəmənlik və geniş otlaq yoxdur. O, belə qərara gəldi ki, bu çöllərdə qalmaq lazımdır və bu şəkildə, artıq qeyd edildiyi kimi, monqollara qədər bura gələn bütün köçərilər belə düşünürdü.

Qıpçaqlar və kimaklar çölləri tutub köç yerlərini öz aralarında bölərək kifayət qədər bu yerlərdə köçəri həyat sürmüşdülər. Çöl o qədər geniş idi ki, ilk vaxtlarda onu ayrı-ayrı kiçik hissələrə bölmədən yaşamaq olardı.

Məlumdur ki, köçərilik mərhələsində mövcud iqtisadiyyata ictimai münasibətlərdə hərbi-demokratik quruluş xasdır. Sonuncu üçün isə tayfalar ittifaqı kimi sosial-siyasi birliklər xarakterik idi.

Məhz belə birliklər bizə XI əsrin sonunda Bonyak, Sarukan, Tuqorxan, Urusubanun rəhbərlik etdiyi birliklər kimi məlum idi. Onların əsas məqsədi yeni torpaqlar zəbt etmək, maksimal dərəcədə yeni ərazilərə sahib olmaq idi. Və bu, meşə-çöl rayonları ilə də mümkün idi (1, 25).

Lakin bu zəbtetmə prosesi kifayət qədər tez kəsildi - çox otlu zəngin otlaqlar, görünür, tamamilə böyük sürüləri qida ilə təmin edirdi. Bununla yanaşı, mal-qaranı ayaqaltı yemdə il boyu saxlamaq çöldə daha uyğun təşkilatın yaranmasına gətirib çıxarırdı. Bu, xüsusilə özünü köçlərin yaylaq və qışlaq hissələrə bölünməsində göstərirdi. İqtisadi zərurət hər bir çöl dəstəsi üçün müəyyən köç marşrutlarını və qışlaq və yaylaq üçün daimi yerlərin müəyyən edilməsini stimullaşdırırdı. Qıpçaqlar artıq XI əsrin sonuncu onilliyində köçəriliyin ikinci mərhələsinə keçdilər. Birincidən o, ilk növbədə, konkret ordalara və alaya mənsub olan müəyyən hissələrə otlaqların bölünməsi, yəni öz hərəkətində dəqiq hüdudlarla məhdudlaşan köçəri qruplaşmaların kifayət qədər daha çox sabitliyi ilə fərqlənirdi. İldən-ilə güclənən sabitlik köçəriləri rus polkları üçün yaxın etdi. Rusların çölə ilk yürüşləri poloveslərdə müəyyən qalma yerlərinin yarandığını göstərən dolayı, lakin mötəbər əlamət oldu. Digər sübut ondan ibarət idi ki, qaldıqları yerin yaxınlığında və köçəri yollarının üstündə ata-babalarının bir, iki, on və daha çox daş heykəllərlə çoxlu sayda məqbərələrinin qurulduğu görünürdü. Bundan əlavə, daha çox əhalisi olan rayonlarda qəbirlər ətrafında kurqanlar, bəzən isə böyük məqbərələr qurmağa başladılar (Buna qədər poloveslər öz ölmüş qohumlarını qədim kurqanlarda basdırmağa üstünlük verirdilər). Müşayiət olunan əşyalara görə? XII əsrə aid edilən daş heykəllər və kurqan qəbirlərin yayılması poloveslərin çöl üzrə yayıldığını göstərir. Sonrakı qrupa aid heykəllər əvvəlki daha erkən dövrə aid heykəllərə nisbətən daha çox yayılmışdı. Bu, yalnız poloveslərdə XII əsrin ikinci yarısında daşkəsmə sənətinin geniş inkişafından deyil, həm də çox güman ki, ordalarda qıpçaq əhalisinin böyük artımından xəbər verirdi.

## ƏDƏBİYYAT

1. Ахинжанов С.М. Кыпчаки в истории средневекового Казахстана. Алма-Ата: Гылым, 1989, с.165.
2. Артаманов М.И. История Хазар. Л.: Эрмитажа, 1962, с.529.
3. Асадов Ф.М. Арабские источники о тюрках в раннем средневековье. Баку: Элм, 1998, с 201.
4. Алексеева Е.П. Карачаевцы и балкарцы – древний народ Кавказа. Черкесск: Нальчик, 1963, с.160.
5. Кумеков Б.Е. Государство кимаков IX-XI вв. по арабским источникам. Алма-Ата: Наука, 1972.
6. Кляшторный С.Г. Кыпчаки в рунических памятниках. Л.: VIIIX, 1986, с.120.
7. Плетнева С.А. Половцы. М.: Наука, 1990, с.204.

## КАРАВАННЫЕ ПУТИ КЫПЧАКОВ В IX-XI ВЕКАХ

**С.Дж.ИСМАИЛЗАДЕ**

**РЕЗЮМЕ**

В статье описываются сведения о материальной и нравственной жизни кыпчаков в течение определенного периода. Кыпчаки установили экономические и политические отношения с некоторыми государствами и народами и таким путем оставили определенный след после себя. Постепенный переход кыпчака к оседлой жизни явился результатом развития сферы торговли. Кыпчаки использовали караванные пути для установление торговых связей.

**Ключевые слова:** кыпчаки, места поселения, международные отношения, торговые караванные пути

## THE CARAVAN ROAD OF GIPCHAGS DURING THE IX-XI CENTURIES

**S.C.ISMAYILZADEH**

**SUMMARY**

The article provides information about the material and spiritual lives of Gipchags during the indicated period. Gipchags had economical and social relations with a number states and nations, and therefore they had impacts on the history of the nations. Gipchags gradually passed to the sedentary life and their commercial life flourished. Gipchags used the caravan roads for trade ties.

**Key words:** Gipchags, settlements, international relations, trade caravan-roads